BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# AZƏRBAYCAN-QAZAXISTAN MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA KİNONUN ROLU
## (XX əsrin 60-cı illəri)

**Ə.B.ƏLƏKBƏROV**
***AMEA-nın A.Bakıxanov ad. Tarix İnstitutu***

XX yüzilliyin 60-cı illərində Azərbaycan Respublikasının Qazaxıstanla mədəni əlaqələrinin inkişafında kino mühüm rol oynayırdı. İncəsənətin ən gənc növü olan kino özünün kütləviliyi, mənavi qüvvəti və emosional təsir imkanları ilə həmişə seçilmişdir. Vaxtilə kinonun əhəmiyyətini yüksək dəyərləndirən görkəmli dövlət xadimi Nəriman Nərimanov yazırdı ki, «adamların məntiqi mühakimədən daha çox obrazlarla düşünməyə vərdiş etdiyi Şərqdə kütlələrin qabaqcadan tədrici hazırlığını tələb etməyən yeganə təbliğat vasitəsi kinodur...» (1).

Kinonun yaradıcılıq imkanı və təsvir vasitələri incəsənətin başqa növlərinə nisbətən daha geniş və hərtərəflidir. O, böyük auditoriyaya, güclü təbliğat və bədii təsir imkanlarına malikdir; real hissi aydın, təsirli və hamının anlayacağı, başa düşəcəyi bir şəkildə göstərir. Xalqın ideya və estetik tərbiyəsində qüdrətli rol oynayan kino incəsənəti, sözün həqiqi mənasında, realist sənətdir. Çünki o, «həm ağıla, həm hissə, həm də ürəyə təsir edir» (1).

Mədəni əlaqələrdə kinonun fəaliyyəti müxtəlif istiqamətlərdə öz təsirini göstərir. Kinofilmlərin mübadiləsi, kinofestivallar, müştərək filmlərin çəkilməsi, baş, əsas və digər rollarda qardaş respublikaların aktyor potensialından istifadə edilməsi, filmlərin milli kinostudiyalarda dublyajı, kino işçilərinin qarşılıqlı səfərləri, təcrübə mübadilələri və s. belə istiqamətlərdəndir (2).

Kinofilmlərin mübadiləsi kino əlaqələrində mühüm yer tuturdu. 60-cı illərdə Azərbaycan kinoteatrlarında müntəzəm olaraq Qazaxıstan filmləri nümayiş etdirilirdi. Azərbaycanda göstərilən «Qazaxfilm»in «Əgər hər birimiz» (1961), «Mənim oğlum» (1962), «Ana haqqında hekayə» (1964), «Mahnının qanadları», «Qaya üstündə çinar», «Doğma yer» (1967), «Səslən tamtam», «Arxamızda Moskvadır» (1968) və başqa bədii filmlər belələrindəndir (3).

Bu filmlər tamaşaçıların ideya, bədii və estetik tərbiyəsində olduqca böyük rol oynayırdı. Onlar xeyirxahlıq, saflıq və ədalət hissləri aşılamaqla bərabər, həm də hər cür amansızlığa qarşı nifrətlə dolu idi. Filmlərin mayasında güclü həyat materialı dururdu, buna görə də sevilir və seçilirdi.

Bədii filmlərin yüksək mənavi dəyərlərə malik olmasını onlar haqqında yazılmış məqalələrdən də aydın görmək olar. Bu baxımdan, qazax bədii filmi barədə Kamil Əlişovun «Doğma yer» məqaləsi çox maraqlı və

təhlili xarakterdədir. Məqalənin ilk abzası eyni adlı qazax filminin qayəsini açmağa imkan verir: «Vətən – doğma torpaq. Vətən – ailə birliyi, əməl birliyi... Bu yüksək vətəndaşlıq mövzusuna xeyli film həsr edilmiş və həmin filmlərin əksəriyyətində ritorikadan uzaqlaşmaq müəlliflərə müyəssər olmamışdır.

Şəhərimizin ekranlarında nümayiş etdirilən «Doğma yer» adlı qazax filmində (ssenarinin müəllifi O.Süleymenov, quruluşçu rejissor Ş.Aymanovdur) bu mövzu tamamilə yeni fəlsəfi, poetik səpkidə verilmiş, «Vətən» məfhumunun psixoloji əsası aydınlaşdırılmışdır» (4).

K.Əlişovun bu təhlil xarakterli «Doğma yer» yazısı obyektiv və səmimi olmaqla bərabər, həm də dolğun, inandırıcı və düşündürücüdür.

Kinofestivallar bədii, tarixi-inqilabi, gənclərin həyatından və fədakar əməyindən bəhs edən filmlərin təbliği, nümayişi və dəyərləndirilməsində mühüm rol oynayırdı.

1960-cı ilin sentyabrından Bakıda Dzerjinski adına parkın kinolektoriyası «SSRİ xalqlarının dostluğu» mövzusunda əlamətdar günlər kinotəqvimi keçirməyə başlamışdı.

Təqvimin ilk səhifəsi Qazaxıstan SSR-ə həsr edilmişdi. Səhifədə «Milyardlar uğrunda mübarizə», «Çörək – xam torpağın məhsuludur», «Cambul öz xalqının nəğməkarıdır» kinofilmləri nümayiş etdirilmişdir.

Kinofestival günlərində coğrafiya elmləri doktoru V.Q.Zavriyev, mühazirəçi B.Q.Canımov və b. təqvimə daxil olan respublikalar haqqında maraqlı söhbətlər etmişlər (5).

1962-ci il iyunun 15-dən 21-dək Azərbaycanda «Gənclik filmləri həftəsi» və sentyabrın 24-dən 30-dək «SSRİ xalqlarının dostluq həftəsi» adı altında kino festivallar keçirilmişdir (6).

Hər iki festivalda digər respublikalarla yanaşı, qardaş Qazaxıstanın da çoxlu sayda bədii, sənədli-xronikal və elmi-kütləvi filmləri nümayiş etdirilmişdir. Festival günlərində Bakı və digər iri şəhərlərimizin kitabxanalarında, kinoteatrların foyelərində, mədəniyyət saraylarında, parklarda sərgilər açılmışdır.

60-cı illərdə ümumi festivallarla yanaşı, respublikaların ayrı-ayrılıqda festivalları da keçirilirdi.

60-cı illərdə Qazaxıstan filmlərinin Azərbaycanda iki dəfə festivalı keçirilmişdir. 1961-ci il dekabrın 17-dən 22-dək davam etmiş birinci festivalda «Qazaxfilm» kinostudiyasının yaradıcı heyəti tərəfindən çəkilmiş üç bədii («Əgər hamımız», «Mahnı çağırır», «Axın»), sənədli-xronikal və mənzərə filmləri («Zülmətdən yol», «Lenindən nur alan», «Bir kolxozun adi günü», «Bayan aulu», «Torpaq və insanlar», «Baharım olan şəhər», «Sovet Qazaxıstanı») nümayiş etdirilmişdir (7).

Qazax kinematoqrafçılrının Azərbaycanda ikinci festivalı 1967-ci il avqustun 14-dən 20-dək olmuşdur. Bu festivalda «Qazaxfilm»in 5 yeni («Doğma yer», «Səslən, təbil!», «Həyəcanlı səhər», «Qaya üstündə çinar», «Mahnının qanadları») (5), əvvəllər çəkilmiş («Amangəldi», «Kələkbaz kosa», «Botaqoz», «Cigit qız», «Bizim əziz həkim», «Ana haqqında hekayət») bədii və 11 elmi-kütləvi və sənədli filmləri göstərilmişdir (8).

60-cı illərdə bədii filmlərin dublyajına xüsusi əhəmiyyət verilirdi. Dublyaj filmlərin bədii materialının, onların qayəsinin dərkini asanlaşdırmaqla bərabər, həm də milli dillərin bir-birinə qarşılıqlı təsiri şəraitində zənginləşmələrini şərtləndirirdi. Həmin dövrdə C.Cabbarlı adına

«Azərbaycan film» kinostudiyasının dublyaj şöbəsində hər il 50-55 film dublyaj edilirdi (9).

60-cı illərdə «Azərbaycanfilm» kinostudiyasının dublyaj şöbəsində «Qazaxfilm»in 5 bədii filmi dublyaj olunmuşdu.

Ancaq dublyaj prosesində nöqsanlara da yol verilirdi. Dublyajın nöqsanlı cəhəti o idi ki, o, birbaşa milli dildən yox, körpü dil – rus dili vasitəsi ilə həyata keçirilirdi. Əlbəttə, bu, təkcə Azərbaycan üçün deyil, başqa respublikalar üçün də xarakterik hal idi. Halbuki, ortaq tarixi köklərə, milli adət-ənənələrə, dil qohumluğuna malik olan bu iki xalqın birbaşa ünsiyyəti daha çox fayda verərdi. Çünki tərcümədən tərcümə, hardasa orijinala kölgə salmaqla bərabər, həm də müəyyən dərəcədə, hansısa məqamın yaddan çıxması və unudulmasına şərait yaradır. Bir milli zəmində görünən ucalıq, gözəllik, o biri milli zəmində eyni dərəcədə alınmaya, görünməyə də bilər. Dil millətin milli mövcudluğunun daşıyıcısı və yaşadıcısı olduğu üçün, dublyajda da, doğma dilə ehtiramı saxlamaq lazımdır.

Kino işçilərinin qarşılıqlı səfərləri, kinostudiyalarda maraqlı görüşləri də kino əlaqələrində mühüm rol oynayırdı.

1961-ci il dekabrın 17-dən 22-dək Azərbaycanda keçirilən Qazaxıstan bədii filmlərinin festivalında iştirak etmək üçün Qazaxıstanın bir qrup kino xadimi və mədəniyyət işçisi də həmin günlərdə Bakıya qonaq gəlmişdi. Qazaxıstan SSR mədəniyyət nazirinin müavini A.S.Fedulinin başçılıq etdiyi nümayəndə heyətinə kino rejissorlardan – Qazaxıstan SSR əməkdar artistləri Kenenbay Qocabayov, Əhməd Şamiyev, rejissor Sultan Xocikov, artistlərdən Gülfeyruz İsmayılova, Raisa Mühəmmədyarova və b. daxil idilər (10).

Festivalda iştirak edən qazax kino işçiləri tez-tez bakılı tamaşaçılarla görüşür, şəhərimizin mədən və zavodlarına qonaq gedirdilər. Bu görüşlər təkcə festival çərçivəsinə sığınıb qalmır, əsl xalqlar dostluğunun gözəl nümunəsinə, ifadəsinə çevrilirdi. Bakının pionerlərindən tutmuş qəhrəman dəniz neftçilərinədək hamı qazax kino sənətinə böyük maraq göstərirdi. Tədbirlərdə çıxış edənlər «Qazaxfilm» studiyasının kinofilmlərinin uğurlu və zəif cəhətlərindən, sovet kinosunun qarşısında dayanan böyük vəzifələrdən və sənətkarlıq məsələlərindən söhbət açırdılar.

Qazaxıstan kinematoqrafiya ustalarının «Kommunist» qəzeti redaksiyasında Azərbaycanın ədəbiyyat və incəsənət işçiləri ilə, «Vətən» kinoteatrında məktəblilərlə görüşləri daha çox maraq doğurmuşdur.

Redaksiyada çox səmimi keçən görüşdə Azərbaycan SSR mədəniyyət nazirinin müavini B.Seyidzadə, «Kommunist» qəzetinin redaktoru İ.Nəzərov, «Bakinski raboçi» qəzetinin redaktoru M.Okulov və b. çıxış edərək qazax filmləri festivalının müvəffəqiyyətlə keçməsindən, qonaqlardan Qazaxıstan SSR mədəniyyət nazirinin müavini A.S.Fedulin, kino rejissoru S.Xocikov, kino artistlərindən Ə.Şamiyev, G.İsmayılova və K.Qocabayov xalqımızın qonaqpərvərliyindən, sözə, sənətə məsuliyyətlə, həssaslıqla yanaşmalarından danışmışlar. Aktrisa Gülfeyruz İsmayılova bu festivalı adi filmlərdən çox, xalqlar arasında olan böyük dostluğu nümayiş etdirən vasitə kimi səciyyələndirmişdir (11).

Festivalın son günü – 22 dekabrda Bakıda qazax kinofilmlərinin müzakirəsi keçirilmişdir. Müzakirədə Azərbaycan SSR mədəniyyət nazirinin müavini Bağır Seyidzadə, yazıçı İmran Qasımov, tənqidçilərdən

Cəlal Məmmədov, Orucəli Həsənov, professor Rza Təhmasib, rejissor Niyazi Bədəlov festival günlərində Bakıda göstərilən Qazaxıstan kinematoqrafiya ustalarının yaratdığı bədii və sənədli filmlərdən söhbət açmışlar. Çıxış edənlər Qazaxıstan kinematoqrafiya ustalarının son illərdə yaratdığı «Mahnı çağırır», «Ərinti» kimi bədii, «Cəhalətə yol», «Bayan aul» kimi yüksək səviyyəli sənədli və mənzərə filmləri ilə yanaşı, süjet xətti lüzumsuz detallarla ağırlaşdırılmış, obrazların psixologiyasındakı yenilik hissi lazımi qədər təsirli boyalarla verilməmiş «Əgər hər birimiz» filminin qüsurlarından danışmışlar.

«Qazaxfilm» studiyasının rejissorları Sultan Xocikov, Oraz Abışev və nümayəndə heyətinin başçısı A.Fedulin çıxış edərək müzakirə iştirakçılarına minnətdarlıqlarını bildirmiş və «Azərbaycanfilm» kinostudiyasının yaratdığı filmlər haqqında öz təəssüratlarını söyləmişlər (12).

1967-ci il avqustun 14-dən 20-dək keçirilən festival günlərində qazax rejissorlarından Ş.Aymanov, Ş.Beysenbayev, artistlərdən Y.Umurzakov, M.Əhmədiyev, A.İskakov, M.İşmühəmmədov və b. Bakı tamaşaçılarının qonağı olmuş, yaradıcılıq hesabatı vermişlər (13).

Kino Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə mədəni əlaqələrində mühüm rol oynayır. Çox təəssüf ki, bu gün kinonun belə geniş və əhəmiyyətli xidmətindən lazımınca istifadə edilmir. Kinonun təsir imkanlarını gücləndirmək üçün aşağıdakı tövsiyələrin nəzərə alınması daha yaxşı olardı: 1. Kinofestivalların keçirilməsini bərpa etmək; 2. Milli kinostudiyalarda dublyaj işini gücləndirmək; 3. Müştərək kinofilmlərin çəkilməsinə nail olmaq; 4. Baş, əsas və digər rollarda qardaş respublikaların aktyor potensialından bəhrələnmək; 5. Kino məsələləri üzrə diskussiyaların, elmi-nəzəri toplantıların keçirilməsi; 6. Kino və əxlaq problemlərinin əlaqə imkanlarını dərinləşdirmək və s.

İndi öz müstəqil inkişaf yolunu seçmiş qardaş respublikaların yaxınlaşması və mədəni əlaqələrinin möhkəmlənməsi istiqamətində bütün vasitələrdən dolğunluğu ilə istifadə etmək gərəkdir. Çünki belə əlaqələr birgə inkişafımıza, dostluğumuzun və qardaşlığımızın sarsılmazlığına xidmət edir. Birliyimiz – güc və qüdrətimiz, mənəvi zənginliyimiz – xoşbəxt sabahımız, işıqlı gələcəyimizdir.

**QEYDLƏR:**


1. Kərimov İ. Müasir həyatımızda kinonun rolu. Bakı: 1964, 4 iyul.
2. Ələkbərov Ə. Azərbaycan Respublikasının Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə mədəni əlaqələrinin inkişafında kinonun rolu (XX əsrin 70-ci illəri) Azərbaycan MEA Tarix İnstitutu, Azərbaycan Tarix Qurumu. Respublika elmi konfransının materialları. Bakı: 2003, s. 105.
3. Федулин А., Резников Ю. Искусство рожденное дружбой. Страницы истории Казахского кино. М., Бюро пропаганды советского киноискусства, 1972, с.73, 76; Коммунист, 1961, 17 dekabr; Bakı: 1962, 31 iyul; Yenə orada, 1964, 25 fevral; 1967, 6 iyun, 13 avqust; 1968, 1 iyun, 10 dekabr.
4. «Bakı», 1967, 17 avqust.
5. «Azərbaycan gəncləri», 1960, 2 sentyabr.
6. «Kommunist», 1962, 15 iyun; «Bakı», 1962, 21 sentyabr.
7. «Ədəbiyyat və incəsənət», 1961, 23 dekabr; «Bakı», 1961, 16 dekabr.
8. «Bakı», 1967, 10, 16, 17 avqust; «Kommunist», 1967, 13, 17 avqust.
9. «Bakı», 1967, 9 yanvar.
10. «Ədəbiyyat və incəsənət», 1961, 23 dekabr; «Kommunist», 1961, 22 dekabr; «Bakı», 1961, 18, 23 dekabr.

11. «Kommunist», 1961, 22 dekabr.
12. «Bakı», 1961, 23 dekabr.
13. «Kommunist», 1967, 17 avqust.

## РОЛЬ КИНО В РАЗВИТИИ КУЛЬТУРНЫХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА С КАЗАХСТАНОМ (60- ГОДЫ XX ВЕКА)

**А.Б.АЛЕКПЕРОВ**

**РЕЗЮМЕ**

В статье раскрывается роль кино в культурных связей Азербайджана с Казахстаном в 60-х годах XX столетия. Говорится о широких возможностях пропаганды и средствах воздействия кино, по сравнению с другими видами художественного творчества, в деле привлечения большой аудитории зрителей двух республик.

В статье отмечается, что развитие различных направлений кино раскроет возможности художественного воздействия на развитие культурных взаимосвязей народов Азербайджана и Казахстана.

## ROLE OF CINEMA IN DEVELOPMENT OF CULTURAL RELATIONS OF AZERBAIJAN WITH KAZAKHSTAN (IN 60 S OF THE XX CENTURE)

**A.B.ALEKBEROV**

**SUMMARY**

The role of cinema in cultural relations of Azerbaijan with Kazakhstan in the 60 s of the XX centure is elucidated in the article. It is shown that the cinema has a wide opportunity for propaganda and means of influence in the sphere of drawing attention the vast audience of spectators both republics in comparison with other types of art activities. It is noted that the development directions of the cinema opens the opportunity of art influence on development of cultural interrelations of the peoples of Azerbaijan and Kazakhstan.